

Əbülfət MƏDƏTOĞLU

# Gözlərin limanına üzən gəmi

## Aysel Xanlarqızının "Sənin pəncərəndə" şeirinin ovqat payı

**Hər kəsin bir adəti, bir xarakteri, bir davranış forması, lap bir az da kobud desəm, hər kəsin özünə görə bir adamlığı var. O adamlığı da şərtləndirən dünyaya baxışdı... ətrafa münasibətdi... gördüyü işdi... göstərdiyi xidmətdi... umduğu diqqət və sevgidi...**

Xüsusi ilə təmənnasızlıq bu adamlığın şah damarı və bir də o damarda axan qanın halallığıdı. Çünki ADAM missiyasını bu söylədiklərimin içərisində, aurasında cilalayırsa... dünyaya da, ADAMın özünə də Sevgi hakim olur! Mən bütün bu həm ciddi, həm də real mənzərənin içərisində bir məqamı da qeyd etməyi özümə borc bilirəm. O da sadə şəkildə ifadə etsəm, ADAMIN öz çevrəsi ilə anlaşmasıdı, ruh doğmalığıdı... Belə olan halda yaşamaq da, yazmaq da, yaratmaq da, fikirləri bölüşmək də, ruhən həmsöhbət olmaq da problem, gərginlik, rahatsızlıq yaratmır, əksinə ruh da dincəlir, ürək də. Çünki ruhun, ürəyin məkanı həm böyüyür, həm də paralelləşir və ...

Deməli, adətimə uyğun olaraq yazı masamın üzərindəki kitablarla, xüsusilə yeni bağışlanmış nəşrlərlə "həmsöhbət" olmaq müəlliflə aramdakı ruh körpüsünü gedişli-gəlişli edir. Bax bu mənada:

*İslanıb ayağı yenə şəhərin,*
*Göylərin səhəngi yerə dağılıb.*
*Gecəni narahat keçirib Allah,*
*Səmada bir qara bulud boğulub...*



Misraları oxuduqca öncə hisslərimin yaxasından səmimiyyət tutur və o səmimiyyətin işığı məni özü ilə yerdən qoparıb üzü göyə çəkir. Yavaş-yavaş hiss edirəm ki, bu işıqla və onun surəti ilə yaxınlaşıram gecəni narahat keçirən, bəndələrini düşünən Allahın dərgahına... Və bir də hiss edirəm ki, bu yeriş, bu surət, həm də bir pıçıltı kimi yaddaşımın pəncərəsini də döyür. Və pəncərənin o üzüdən kimsə üzünü göstərmədən ona pıçıldadıqlarımı özümə qaytarır. Deyir ki:

*məni sevdin, cəzalandın*
*üzünə baxan olmadı.*
*namaz ötdü, qəzalandım*
*kimsə səninçün qılmadı.*

Bu fikirlər, əslində isə bu pıçıltılı səs quyu dibindən adamı çəkib çıxaran ümid kimidi və o ümidin gücü də, təpəri də, hətta sözünün kəsəri də quyu dibindən çıxmağı bacarmağındadı. Yəni qətiyyət, mərama can atmaq gerçəyin üstünə getməkdi. Necə ki, masamın üstündəki kitabdan oxuduğum şeirin müəllifi yazır:

*Küçələr çırmanıb topuğa kimi,*
*Yolların qolu yox çamur götürə...*
*Elə isladıb ki, məni bu həyat,*
*Ehtiyac qalmayıb daha çətirə.*

Gördünüzmü, mən yanılmamışam, hisslərim məni aldatmayıb. Qətiyyət və cəsarətlə birlikdə, səmimiyyət də reallığı ifadə etməkdə yardımçı olur, özü də təkcə müəllifə yox, həm də oxucuya. Ona görə ki, təsvir olunan mənzərə müəllifin gördüyü gözünə, könlünə köçürtdüyü ilə yanaşı, həm də yaşadığıdı. Yaşanan isə həmişə inandırıcı və həm də səmimi olur. Çünki mənə pəncərə arxasından pıçıldayan səs də bu gerçəkliyi, bu səmimiyyəti gizlətmir:

*xoş günlərə zədə gəldi*
*addım atdım, hədə gəldi.*
*zaman keçdi, vədə gəldi -*
*qarşına çıxan olmadı...*

Bir-birini təsdiqləyən və həm də bir-birinin içindən ötüb keçən hisslərin üz tutduğu ünvan da artıq əl çatandadı, səs çatandadı, lap az qala bir addımlıqdadı. Lakin bu bir addımlıq yol da qətiyyət istəyir, cəsarət istəyir, üstəlik ömürdən pay umur. Ona görə ki, yaşanır! Və həm də bu ifadə etdiklərimin özündə ehtiva edəni yaşadır! Axı bütün baş verənlər ürəyin heç kimdən, heç kəsdən soruşmadan özünü təslim etdiyi Sevginin diktəsidi. Bu mənada artıq reallıqla barışmağın zamanıdı.

*Gecəsi mənimlə nəmlənən şəhər,*
*Günəşi çiyninə atacaq səhər.*
*Gəmisi tufanda batan ümidəm,*
*Gözümü limantək sevir dənizlər.*

Mən dənizlərin yaşamından, necə deyərlər, hər halından xəbərdaram. Amma bütün dənizlərin liman olmadığını da bilirəm. Gözlərin isə liman olması artıq əvvəldə vurğuladığım sevginin qüdrətidir. Bu qüdrət də gecəni rahatsız olmuş Allahdan gəlir. Ünvan bəlli... göz liman...Allah rahatsız... Bəndə pəncərə arxasında pıçıldamaqda:

*uzlaşmadı sözün himi*
*oxşamadı mizrab simi.*
*mən dəlini sənin kimi*
*yandırıb-yaxan olmadı...*

Sizi deyə bilmərəm. Amma mən birmənalı şəkildə yer adamı olmaqdan uzaqlaşıram. Çıxıb gedirəm həmin o qaranlığı yaran işığın ardınca, işığın surəti ilə. Gedə-gedə də bir daha hiss edirəm ki, bu təkcə zülməti yarmaq deyil, bu həm də çatmaq istədiyini köksünə sıxmaq, ona sarılmaqdı, ona qovuşmaqdı. Deməli, ürəyin və həm də ruhun əlbirliyi, dil birliyi son olaraq səni birtəhərlikdən, bədgümanlıqdan, ümidsizlikdən, lap elə inamsızlıqdan qurtara bilir. Çünki:

*Zülməti qoynuna alan otağım,*
*Birtəhər yuxuya verər kədəri...*
*Mənim pəncərəmdə şimşəktək çaxar,*
*Sənin pəncərəndə yağar gözlərim...*

Fikirlərimin əvvəlində səmimi şəkildə etiraf etmişdim ki, ruh doğması ilə, könlümə yaxın hislərlə baş-başa qalmaq mənim özümü də özümlə baş-başa qalmağa qaytarır. Yolun çətinliyindən, hətta bu yoldakı uğursuzluqdan belə çəkinmədən davamlı olaraq güvəndiyim, sığındığım, yer üzündə Tanrım bildiyim bəndənin nəfəsi, hətta kölgəsi belə mənim sevgimin yaşaması, varlığı deməkdir. Baxmayaraq ki, hər dəfə, hər addımda, hər kəlmədə Onun pəncərənin işığına bürünə bilməsəm də, heç kədəri də yuxuya vermək fikrində deyiləm. Çünki o pəncərədən günəşin boylanacağına Allahın özü qədər inanıram. O inamın hərdən asilik məqamında yazdığım:

*ha bu yolu gedib-gəlim*
*ox olmadım - ürək dəlim!*
*sevinən nə mənim əlim,*
*nə sənin yaxan olmadı.*

**- misralara baxmayaraq, GÖZLƏRİN LİMANI o limana yan alan gəmi üçün yaşıl işıq yandıracaq. O gəmi gözlərin limanı üçün üzür axı...**